

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

5 AVQUST 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 161 (8209) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ


# Dünyanı birləşdirən qlobal nəqliyyat qovşağı



*Strateji üstünlüyünü dəyərləndirmək və regional inkişafı qlobal arenaya daşımaq məqsədilə Azərbaycan hökuməti genişmiqyaslı nəqliyyat və logistika islahatlarını həyata keçirir. Müasir nəqliyyat infrastrukturu, inkişaf edən tranzit marşrutları və beynəlxalq yük daşımalarının mərkəzinə çevrilmək istəyi ilə Azərbaycanın bu sahədə strateji yanaşmaları dünya ticarətində ciddi əhəmiyyət kəsb edir. Ölkəmizin tranzit və nəqliyyat-logistika imkanlarına Xəzər dənizi, avtomobil və dəmir yolları, həmçinin hava yolları daxildir. Bu gün ölkəmiz nəinki regionun, dünyanın lider ölkələri sırasında olmaqla bərabər, demək olar ki, bütün regional layihələrin əsas tərəfdaşı və təşəbbüskarıdır. Artıq Azərbaycan Asiya ilə Avropa arasında yerləşən ölkə kimi Avrasiya məkanında nəqliyyat-logistika sahəsinin inkişafına böyük töhfələr verir, əhəmiyyətli bir sıra layihələrin reallaşmasında xüsusi rola malikdir.*

**Unikal coğrafi mövqeyi, Şərq ilə Qərb, Şimal ilə Cənub arasında yerləşməsi Azərbaycanı ticarət yollarının mərkəzi kimi önə çıxarır**

Dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi iqtisadi strategiya ölkənin bütövlükdə iqtisadiyyatının şaxələndirilməsinə geniş imkanlar yaradır. Logistika sürətlə qloballaşan dünyada iqtisadi artımın mühüm təkanverici qüvvəsinə çevrilməklə, əsas sektorlarda birbaşa xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır. Cənab İlham Əliyev bu il yanvarın 28-də keçirilən nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə Azərbaycanın nəqliyyat imkanlarından və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində rolundan geniş bəhs etdi. Diqqəti nəqliyyat infrastrukturunda əldə olunan nəticələrə yönəldən Prezident İlham Əliyev bildirdi ki, son 20 ildə Azərbaycanda 21 min kilometr avtomobil yolu tikilib və təmir edilib. 335 körpü və yolötürücüsü, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib. Dəmir yolu infrastrukturuna gəldikdə 1500 kilometrdən çox dəmir yolu tikilib, 1800 kilometr təmir edilib.

İqtisadi və ticari strategiyada önəm daşıyan Şərq-Qərb Nəqliyyat Dəhlizi Avropa və Asiya bazarlarını birləşdirərək, Azərbaycanı bu istiqamətdə daimi tranzit ölkəsinə çevirir. Əsas elementlərindən biri olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti regionun nəqliyyat potensialını gücləndirən, Türkiyə üzərindən Avropaya birbaşa dəmir yolu əlaqəsini təmin edən layihələrdəndir. BTQ, həmçinin, Mərkəzi Asiya ölkələri üçün də bir tranzit qapısı olaraq yeni imkanlar yaradır. Xüsusilə, Çin ilə Avropa arasındakı ticarət axınlarının sürətlənməsinə və logistika xərclərinin azalmasına xidmət edən bu layihə Azərbaycanın qlobal logistika şəbəkəsində əhəmiyyətli aktor olduğunu göstərir. Cənab İlham Əliyev görülən işlər sırasında Sumqayıt-Yalama dəmir yolunun tikintisindən də bəhs edib. Artıq tikintinin 80 faizi yerinə yetirilib. Yaxın zamanlarda tam istifadəyə veriləcək. Həmçinin Azərbaycan şəhərləri arasındakı bağlantıları təmin etmək üçün bir neçə yeni qatar istiqaməti müəyyənləşdirilib ki, bunlardan biri Bakı-Qəbələdir. Qəbələ şəhərinə dəmir yolu xətti heç vaxt çatmırdı. O yol da inşa edildi və çox lazımlıdır. Bakı-Balakən və Bakı-Ağstafa dəmir yolları fəaliyyətini bərpa etdi. Bu yollar, əslində, ölkəmizi qərb, həmçinin şimal-qərb sərhədi və Qəbələ şəhəri ilə bağlayır. Bütün bu yollar üzrə yerləşən şəhərlər də təbii olaraq əhatə olunurlar. Azərbaycanda doqquz beynəlxalq hava limanı inşa olunub. Bakı, Naxçıvan, Gəncə və Lənkəran hava limanları yenidən qurulub. Bu dörd hava limanının həm zolaqları, həm terminal kompleksləri ən müasir standartlara cavab verir. Bununla bərabər, dörd yeni hava limanı inşa edilib - Qəbələ, Zaqatala, Füzuli və Zəngilan. Doqquzuncu beynəlxalq hava limanı bu il Laçında istifadəyə verilib. İşğaldan azad edilmiş ərazilərdə nəqliyyat layihələri sürətlə həyata keçirilir. Bu ərazilərdə görülən işlərin əsasını nəqliyyat layihələri təşkil edir. Hələlik cəmi 44 avtomobil yolu layihəsi icra edilib, ya da ki, icra edilməkdədir. Eyni zamanda, 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanmışdır.

(davamı 4-cü səhifədə)

# Dünyanı birləşdirən qlobal nəqliyyat qovşağı



***Unikal coğrafi mövqeyi, Şərq ilə Qərb, Şimal ilə Cənub arasında yerləşməsi Azərbaycanı ticarət yollarının mərkəzi kimi önə çıxarır***

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın logistika mərkəzinə çevrilməsində Ələt Azad İqtisadi Zonası xüsusi əhəmiyyət daşıyır. 2020-ci ildən etibarən tikintisinə başlanılan bu zona ölkəyə xarici investisiyaların cəlb edilməsi və yüksək əlavə dəyər yaradan sektorların inkişaf etdirilməsi üçün nəzərdə tutulub. Ələt Azad İqtisadi Zonası (ƏAİZ) Azərbaycanın iqtisadi strategiyasının ən mühüm sütunlarından birinə çevrilmişdir. Bu zona ilə yanaşı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Azərbaycanın mühüm nəqliyyat mərkəzinə çevrilməsi üçün əlverişli şərait yaradır. Ələt Azad İqtisadi Zonası, xüsusilə nəqliyyat və ticarət üçün xüsusi şərait təmin edən logistika və gömrük rejimləri ilə xarici şirkətləri və investorları cəlb edir, nəticə etibarilə ölkədə iqtisadi artımı dəstəkləyir. Bakı şəhərinin Qaradağ rayonunda, Ələt qəsəbəsində yerləşir. Bu məkan təsadüfi seçilməmişdir. Ərazi Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, Bakı-Tbilisi-Qars dəmir yoluna, beynəlxalq hava limanlarına yaxınlığı ilə logistik baxımdan əlverişli mövqeyə malikdir. "AZCON Holding" şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) tabeliyinə verilmiş "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC "Bakı Beynəlxalq Dəniz Limanı" MMC-yə çevrilib. Prezident İlham Əliyevin 25 fevral 2025-ci il tarixli sərəncamına əsasən, ADY Bakı Limanının ona qoşulması formasında yenidən təşkil edilib. "Bir neçə il bundan əvvəl bu limanın tikilməsi qərarını verdim. İnşaatda yerli və xarici mütəxəssislər iştirak ediblər. Yapılan işlərə görə onlara təşəkkür edirəm. Burada ən yüksək standartların tətbiq olunduğuna şadam. Bununla biz, Azərbaycanda güclü nəqliyyat və logistika mərkəzi yaratdıq". Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (paytaxtın Qaradağ rayonu) 14 may 2018-ci ildə açılış mərasimində Prezident İlham Əliyevin söylədiyi bu fikirlər ölkə rəhbərliyinin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə və Azərbaycanın tranzit imkanlarının artırılmasına yüksək önəm verdiyinin sübutudur.

Onu da qeyd edək ki, 2010-cu ilin noyabr ayında kompleksin təməli qoyulmuşdur. 2014-ci ilin sentyabr ayında əsas bərə terminalı istifadəyə verilmişdir, yanvar 2018-ci ildə - Ro-Ro terminalı, həmin ilin may ayında isə bütövlükdə kompleksin açılışı baş tutmuşdur. Limanda 12 bərə var. Bərələrin ümumi uzunluğu təxminən 2100 metrdir. Ən müasir mühəndislik yeniliklərindən biri olan dəmir-beton konstruksiyanın istinad divarının uzunluğu 1777 metrdir. Limanda Ro-Ro (rampa bölməsinə yaxınlaşan gəmilər yükləri boşaldacaq) tipli gəmilərin yanalması üçün 2 bərə, yeddi bərədən ibarət universal konteyner terminalı, iki bərə körpüsü, həmçinin gəmilər üçün xidməti yanalma körpüsü tikilmişdir. Kanal və akvatoriya Xəzər dənizində üzən bütün növ gəmilərin limanına pulsuz giriş imkanı verir. Limanın yükdaşıma qabiliyyəti 15 milyon tondur, növbəti mərhələdə 25 milyon tona çatdırılacağı nəzərdə tutulur. Ələt qəsəbəsi avtomobil yolları və dəmir yollarının kəsişməsində yerləşir və yeni liman bu infrastrukturu tamamlayaraq, Bakını bölgənin əsas logistika mərkəzi və Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin əsas mərkəzinə çevirir.

Cənubi Qafqazın aparıcı ölkəsi kimi öz geosiyasi mövqeyindən maksimum yararlanaraq regionlararası nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılmasında Azərbaycan fəal iştirak edir. Ölkəmizin zəruri infrastrukturun təşkilində oynadığı mühüm rol digər potensial marşrut dəhlizlərinin də formalaşdırılmasına təkan verir. Asiya və Avropa arasında körpü rolunu oynayan Azərbaycan bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Bununla da Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa dəyərli töhfə verir. Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda, ümumilikdə Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan dövlətə çevirən Prezident İlham Əliyev qlobal layihələri ilə ölkəmizi dünyada cəlbedici investisiya məkanı kimi tanıdıb. Təsadüfi deyil ki, dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən bir çox nəhəng layihə regionun, Avrasiya məkanının enerji və nəqliyyat xəritəsini dəyişdirib, bölgənin və daha geniş coğrafiyanın enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat-kommunikasiya, logistika infrastrukturunun inkişafına yüksək töhfə verib.

Azərbaycan üçün əsas strateji əhəmiyyətli tranzit dəhlizi Şərqdən Qərbə və əks istiqamətdə yüklərin daşındığı Orta Dəhliz hesab olunur. ADY formalaşdığı 2017-ci ildən Orta Dəhlizin aktiv iştirakçı və qurucularındandır. Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan limanlarından keçməklə formalaşan əsas marşrutun fəaliyyətinin təmin edilməsi ilə yanaşı, Azərbaycan tərəfi bu dəhlizin şaxələndirilməsi və alternativ qollarının da formalaşdırılması üzrə əsas təşəbbüskar tərəf olmuşdur. Bununla yanaşı, 2024-cü ildə Azərbaycanın təşəbbüsü ilə Orta Dəhlizin Xəzərin şərq sahilində daha bir qolunun - Çin, Tacikistan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Xəzər dənizindən keçməklə formalaşdırılması məqsədilə sentyabr ayında Bakı şəhərində "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının yaradılması işlərinə başlanılıb. Dəhlizlərin fasiləsiz, etibarlı və səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında üçtərəfli ("Middle Corridor Multimodal" LTD) və ikitərəfli ("BTKI Railways" LLC) birgə müəssisələr yaradılıb. Bundan başqa, Horadiz-Ağbənd layihəsinin tamamlanması, Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında yeni dəmiryol xəttinin çəkilməsi, Naxçıvan MR ərazisində dəmiryol şəbəkəsinin modernləşdirilməsi və Naxçıvan MR ilə Azərbaycanın digər hissəsi arasında dəmiryol əlaqəsinin təmin edilməsindən sonra yekun nəticədə Orta Dəhlizin daha bir qolu formalaşacaq.

Asiya və Avropanı birləşdirən yeni marşrutların keçdiyi əsas ölkələr arasında Azərbaycanın ön sıralarda yer alması təsadüfi deyil. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil. Ölkəmiz Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir. Dünyanın ən böyük iqtisadiyyatına malik ölkələrdən biri olan, ixrac həcminə görə beynəlxalq reytinq cədvəlində ilk pillədə qərarlaşan Çinin Avropa, eləcə də Qara dəniz, Aralıq dənizi hövzəsində yerləşən ölkələrlə nəqliyyat xətləri vasitəsilə birləşməsində Azərbaycan getdikcə daha vacib rol oynayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə bir sıra mühüm infrastruktur layihələrinin icrasına başlanılmışdır. Belə layihələrdən biri Horadiz-Ağbənd dəmir yolu xəttinin yenidən qurulmasıdır. Sözügedən dəmir yolu xətti ölkəmiz üçün həm strateji, həm də ciddi iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, Zəngəzur dəhlizinin əsas elementlərindən biri olacaq.

Regionda kommunikasiyaların, yolların açılması, eyni zamanda, yeni nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması Azərbaycan dövlətinin strateji prioritetləri sırasındadır. 2021-ci ilin fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymuşdur. Qeyd edək ki, uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Dövlət başçısı bildirmişdi ki, uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək. "Bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq". Layihə nəticəsində İran ilə Ermənistan və Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Əsas məqsəd bütün bölgə ölkələrinin yeni formalaşacaq nəqliyyat əlaqəsindən xeyir götürməsidir.

Ölkəmizin nəqliyyat imkanları beynəlxalq maliyyə qurumlarının hesabatlarında da liderliyini qorumasını şərtləndirir. Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşür. Dəmir yollarının səmərəliliyinə görə dünyada 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdə qərarlaşır. Bu sahəyə qoyulmuş vəsait ölkəmizin iqtisadi, xüsusilə qeyri-neft sektorunun inkişafına da müsbət təsir göstərir. Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı" təsdiq edilib. Fəaliyyət Proqramında bu mühüm məqam öz əksini tapır ki, son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi marşrutlarda yaranmış problemlər Azərbaycan ərazisindən keçən dəhlizlər üzrə tranzit yükdaşımaların həcmində kəskin artıma səbəb olmuşdur. Artan tələbatın qarşılanması, Azərbaycanın tranzit potensialının daha da gücləndirilməsi, eləcə də ölkə ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün qısa və orta müddətli perspektivdə həyata keçiriləcək tədbirləri özündə ehtiva edən sənədin hazırlanmasına ehtiyac yaranmışdı. Bununla əlaqədar hazırlanmış "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı" nəqliyyat sahəsində, xüsusilə tranzit yükdaşımalarında qlobal trendləri nəzərə almaqla mövcud vəziyyətin təhlilini və ölkəmizin tranzit potensialının daha da artırılması üçün hədəf göstəriciləri, məqsədləri, prioritet istiqamətləri və tədbirlər planını özündə ehtiva edir.

**Mustafa KAMAL,**
**"Respublika".**